**EUROPEAN UNION**

DELEGATION TO THE REPUBLIC OF AZERBAIJAN

## Rəsmi Müsabiqə Qaydaları

- Bu yarışma Azərbaycanda yaşayan 14-18 yaş arasında olan azərbaycanlılar üçün açıqdır.

- Videolar orta hesabla 2-4 dəqiqə olmalıdır.

- Videolar WeTransfer vasitəsi ilə cari ilin 25 noyabr tarixindən gec olmayaraq delegation-azerbaijan@eeas.europa.eu ünvanına göndərilməlidir. Videolar ərizə forması və ingilis dilində videonun qısa məsmuzu ilə birlikdə göndərilməlidir.

- Videolar müsabiqə iştirakçılarının orijinal işi olmalı və başqa işlərdən kopyalanmamalıdır.

- Bir nəfər ya da bir komanda yalnız bir video təqdim edə bilər.

- Valideynin və ya qanuni qəyyumun yazılı razılığı olmadan, video hazırlayan da daxil olmaqla videoda azyaşlıların görüntüsünə və ya başqa cür tanınmasına icazə verilmir.

- Müsabiqəyə girərək, iştirakçı razıdır ki, o, video hazırlayıb və təqdim edib. O, görüntüsünün videoda olması üçün hər bir kəsdən icazə almışdır.

- Videonuzu təqdim etməklə Avropa İttifaqı Nümayəndəliyinə videonu yayımlamaq (məs., veb-saytlar, Facebook, YouTube), yaymaq, nümayiş etdirmək, ötürmək, televiziya efirində yayımlamaq və digər formada istifadə etmək hüququ verirsiniz.

- Münsiflər heyətinin qərarları yekundur və onlardan şikayət verilə bilməz.

- Aİ Nümayəndəliyi müsabiqə müddətində kifayət sayda və şərtlərə cavab verən videolar almasa, mükafat verməmək hüququnu özündə saxlayır.

- Aİ Nümayəndəliyinın əməkdaşlarının uşaqları və ya ailə üzvləri bu müsabiqəyə qatıla bilməz.

- Bu müsabiqədə iştirak avtomatik olaraq Müsabiqə Qaydalarını qəbul etmək deməkdir.